

Mədəniyyət naziri Əbülfəs Qarayev "İncəsənətdə Nəsimi obrazı" mövzusunda beynəlxalq elmi konfransda iştirak etmək üçün ölkəmizdə səfərdə olan Rusiya, Özbəkistan və Qazaxıstandan qonaqları qəbul edib. Nazir qonaqları salamlayaraq ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli münasibətlərin yüksək səviyyədə olduğunu bildirib. Əbülfəs Qarayev Prezident İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülən mədəniyyətlərarası dialoqa dair "Bakı Prosesi" çərçivəsində keçirilən tədbirlərin əhəmiyyətindən söz açıb, bu təşəbbüsün artıq qlobal platformaya çevrildiyini vurğulayıb. AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun direktoru, professor Ərtegin Salamzadə "İncəsənətdə Nəsimi obrazı" mövzusunda beynəlxalq elmi konfrans barədə danışıb. Rusiyanın Krasnodar Dövlət Mədəniyyət İnstitutunun prorektoru, professor Nikolay Denisov iqtisadi elitanın, maliyyəçilərin ölkənin yaradıcı elitası ilə təmasının inkişaf etdirilməsinin XXI əsrdə mədəniyyətin sənayeləşməsinə və özəl sektor tərəfindən dəstəklənməsinə müsbət təsirindən danışıb. Sonda Özbəkistan Rəssamlıq Akademiyası Kəmaləddin Behzad adına Milli Rəssamlıq və Dizayn İnstitutunun rektoru, professor Nodirbek Sayfullayev qonaqlar adından səmimi qəbula görə Əbülfəs Qarayevə minnətdarlığını bildirib, xatirə hədiyyəsi təqdim edib.



"Kaspi" Təhsil Şirkəti və "Kaspi" qəzetinin böyük şairin yubileyinə həsr etdiyi yazı müsabiqəsinin yekunu və müəllifi sənətşünas Ziyadxan Əliyev olan "Nəsimi dünyası rənglərin gözü ilə" kitabı (kitabın üz qabığında verilən əsərin müəllifi rəssam Tərlan Eyvazov), eləcə də müsabiqəyə təqdim olunan məqalələrdən ibarət "Əbədiyyət günəşi" adlı toplunun təqdimatı da "Nəsimi ili"nə layiqli töhfə oldu. Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov və "Kaspi" Təhsil Şirkətinin təsisçisi, filologiya üzrə elmlər doktoru Sona Vəliyeva müsabiqəyə ümumilikdə 60-dan çox məqalə təqdim olunduğunu və bu iki nəşrin abidəyə, tarixə çevriləcəyini dedilər.







Tədbirdə AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru Möhsün Nağısoylu, Nəsimi tədqiqatçısı Səadət Şıxıyeva, AMEA-nın müxbir üzvü Kamran Əliyev, akademik Muxtar İmanov, BDU-nun professoru Cahangir Məmmədli, "Ədəbiyyat" qəzetinin baş redaktoru Azər Turan çıxış edərək Nəsiminin ən böyük milli sərvətimizi – Ana dilimizi yaşadan böyük söz ustadı olduğunu vurğuladılar. Tədbirin sonunda yazı müsabiqəsinin qaliblərinə mükafatlar təqdim olundu. I yerə Nəzakət Məmmədli, II yerə Yaqub Babayev, III yerə Firudin Qurbansoy layiq görüldülər.

